Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏ – 200

*Tövsiyə ədəbiyyat göstəricisi*

**Bakı – 2012**

UOT 016:821.512.162 (05)

**İxtisas redaktoru və**
**buraxılışa məsul:** **Kərim Tahirov,**
*fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva**

**Mirzə Fətəli Axundzadə - 200: biblioqrafiya** /ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2012.- 360 səh.

ISBN 978-9952-460-09-4

**© M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası, 2012.**

# Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2012-ci ildə böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim və maarifçi Mirzə Fətəli Axundzadənin anadan olmasının 200 illiyi tamam olur.

Bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açan Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin təntənəli surətdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 aprel 2010-cu il

# TƏRTİBÇİDƏN

2012-ci il iyun ayının 30-da böyük alim, Şərqdə materialist fəlsəfənin, milli realist dramaturgiyanın banisi, maarifpərvər, Azərbaycan ədəbiyyatının klassiki Mirzə Fətəli Axudzadənin anadan olmasının 200 illiyi tamam olur.

Dahi mütəfəkkirin zəngin və çoxcəhətli yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Onun əsərləri bir sıra xarici ölkə xalqlarının dilinə tərcümə olunmuş, haqqında xeyli kitab, monoqrafiya, dissertasiya və məqalələr nəşr edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2010-cu il 13 aprel tarixli Sərəncamı ilə 2012-ci ildə Mirzə Fətəli Axundzadənin anadan olmasının 200 illiyinin təntənəli şəkildə keçirilməsi nəzərdə tutulmuşdur.

M.F.Axundzadə adına Milli Kitabxana tərəfindən tərtib olunmuş “Mirzə Fətəli Axundzadə - 200” tövsiyə ədəbiyyat göstəricisi böyük mütəfəkkirin yubileyinə həsr edilmişdir.

Görkəmli ədib haqqında ilk göstərici 1948-ci ildə Milli Kitabxananın əməkdaşı Hüseyn Tağıyev tərəfindən hazırlanmış, 1960-cı ildə həmin biblioqrafiyaya əlavələr edilərək ikinci nəşri çap edilmişdir. 1962-ci ildə isə kitabxananın əməkdaşı A.N.Lerman tərəfindən “Mirzə Fətəli Axundov rus mətbuatında” adlı biblioqrafiya rus dilində nəşr edilmişdir. Adlarını çəkdiyimiz biblioqrafik vəsaitlər mütəfəkkirin zəngin irsini geniş əhatə etdiyinə görə müxtəlif oxucu qruplarına təqdim olunan bu tövsiyə ədəbiyyat göstəricisində materiallar tam fərqli şəkildə verilmişdir. Belə ki, kitablar nəşr ilindən asılı olmayaraq yenidən toplanmış, işlənmiş, əlavələr edilmişdir. Dövri mətbuat materialları isə, əvvəlki göstəricilərdə verildiyi nəzərə alınaraq 1957-ci ildən 2012-ci ilədək olan dövrü əhatə edir. Daha da təkmilləşdirilmiş bu biblioqrafik vəsaitdə ilk dəfə olaraq M.F.Axundzadə haqqında yazılmış disser-

tasiya və aftoreferatlar, xarici dillərdə çap olunan əsərlər də öz əksini tapmışdır.

Göstəriciyə daxil edilmiş xarici dildə olan ədəbiyyat kitabxananın sorğusu əsasında xarici ölkələrin Milli kitabxanaları tərəfindən göndərildiyinə görə ədəbiyyatın təsviri olduğu kimi saxlanılmışdır.

Vəsaitdə mütəfəkkirin həyatı, yaradıcılığı və ictimai fəaliyyətinin əsas tarixləri, ədibin seçilmiş fikirləri, görkəmli şəxsiyyətlərin ədibin yaradıcılığı və fəaliyyəti haqqında söylədikləri fikirlər öz əksini tapmışdır.

M.F.Axundzadə irsini geniş oxucu kütləsinə çatdırmaq məqsədilə tərtib edilmiş bu biblioqrafik göstəricidə Azərbaycan, rus və xarici dillərdə nəşr olunan materiallar "Əsərləri" və "Həyat və yaradıcılığı haqqında" adlı bölmələrdə xronologiya üzrə, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır. Göstərici Azərbaycan və rus dillərində tərtib edilmişdir.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda böyük klassikin əsərlərinin, haqqında yazan müəlliflərin, sərlövhə üzrə təsvir olunmuş ədəbiyyatın əlifba göstəricisi tərtib edilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini bildirəcək hər bir mütəxəssisə və oxucuya əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 29;
E-mail: contact@anl.az; URL: www.anl.az

## FİKİR, DAVAT VƏ QƏLƏM MÜBARİZİ

Vaxtilə O.Uayld deyirdi ki, Balzakın romanlarına qədər XIX əsr mövcud deyildi, XIX əsri onun romanları yaratdı. Təbii ki, hər bir xalqın özünün XIX əsrini yaradan bir Balzakı vardır. M.P.Vaqiflə qurtaran XVIII əsrdən yeni dövrə keçidin bütün ağırlığını çiynində daşıyan və xalqımızın ictimai-bədii və ədəbi-mədəni fikir tarixinin XIX əsrini yaradan Mirzə Fətəli Axundzadə (1812-1878) oldu.

M.F.Axundzadə dünyaya milyonlardan biri kimi gəldi. Gəldi ki, özünün adi ömrünü yaşasın, talenin ona borc verdiyi həyatı kədərsiz, qüssəsiz, əzabsız başa vursun. Özü ilə dünyaya eyni vaxtda gələn yaşıdlarından qətiyyən fərqlənmədi. Amma tədricən həyatın təsadüfləri balaca Fətəlinin ömür yoluna müdaxilə etməyə başladı: o, istədiyi ömrü də yaşayırdı, lakin həyatın məcburi, istəyi və arzusu ilə uyğun gəlməyən dəyişmələrini də yaşamalı olurdu. Ulu və bütöv yurdu ikiyə parçalayan sərhəd həm də balaca Fətəlinin körpə qəlbindən keçdi. Anası, babası yox, yad orduların və silahların sayıqlıqla qoruduqları sərhəd onu atasına, ögey bacılarına həsrət qoydu. Bölünməz torpaqda şırım açan sərhədin ağrısı, acısı ömrü boyu onunla qaldı, amma yaddaşını ikiyə parçalaya bilmədi. Onun bədii dünyasında Azərbaycan bütövdü, başqalarının müəyyənləşdirdikləri sərhədi xalqın qılıncla, qanla qoruduğu tarixi sərhəd əvəz edibdi: burda Qarabağ da var, Lənkəran da var, Təbriz də...

Ənənəvi Şərq təhsili alan M.F.Axundzadənin dahi Mirzə Şəfi ilə görüşü başqa bir sərhədə – təfəkkürdən, dünyagörüşdən keçən sərhədə çevrildi. Mirzə Şəfinin onu “riyakar və şarlatan” olmaqdan – ruhanilikdən uzaqlaşdırmaqda məqsədi İslam dininə nifrət oyatmaq yox, başqa mədəniyyət tipinin, başqa təhsil sisteminin, yeni tarixi mərhələdə, xalqa namuslu və faydalı xidmətin daha səmərəli yolunun mövcudluğunu göstərmək, başa salmaq və inandırmaq idi. Onun özü tərcümeyi-halında yazırdı: “...Mirzə

Şəfi Ürfanın bütün məsələlərini mənə təlqin etdi və qəflət pərdəsini mənim gözümdən açdı”.

Mövcud qadağalarla, mühitin, çəmiyyətin tələbləri ilə hamı kimi yaşamaq prinsipi M.Ş.Vazehin onda həqiqi islami dəyərlərdən uzaqlaşan din xadimlərinə qarşı heyrətamiz şübhə oyatdığı vaxtdan başladı. Ruhanilikdən imtina bir nankorluq kimi yozuldu – Axund Hacı Ələsgər kimi bir dindarın övladı “kafirliyi” ömür yolu seçir; digər tərəfdən də o, təminatlı rahat bir gələcəkdən üz döndərməklə geniş xalq kütləsinin inamına, imanına qarşı laqeydliyini, biganəliyini büruzə vermiş oldu. Ustadının köməkliyi və təsiri sayəsində kiçik yaşlarından, hələ şüurlu şəkildə fəaliyyətə başlamadığı vaxtlardan özünü çoxluğa qarşı qoydu. Hamıdan seçilməsi, hamıdan fərqlənməsi bir sıra hallarda özündən asılı olmurdu: məktəbə getdi, yaşca özündən kiçik uşaqlar ona güldülər, tərcüməçi düzəldi, dili yaxşı bilmədiyindən çar çinovniklərinin ironiyasını, istehzasını qazandı... Amma M.F.Axundzadə dözürdü, nələr itirdiyini çox gözəl bildiyi halda, təəssüflənmirdi. O, ruhanilikdən imtina elədiyi halda “çarizmə xidmətə” meyl göstərdi, din xadimliyini çinovnikliyə qurban verdi. Məgər çinovniklik “riyakar və şarlatan” olmaqdan vacibdimi? Axundzadə rus ordusunda hərbi işə yox, çar dəftərxanasına tərcüməçiliyə düzəldi. Məqsəd dolanacağı təmin etmək, qarşısıalınmaz bir axınla Şərqə, o cümlədən Azərbaycana hücuma keçmiş Qərb mədəniyyəti ilə ünsiyyətdə, təmasda olmaq, Mirzə Şəfinin dediyi, “başqa bir peşə”nin sahibi olmaq idi.

Çinovniklik Axundzadəyə eyni zamanda fəaliyyətinin miqyaslarını genişləndirməyə imkan verirdi (çarizmin şübhələri, təzyiqləri və təqibləri altında yaşayan ruhanilərlə müqayisədə dünya arenasına çıxmaq, Şərq dövlətləri ilə rəsmi əlaqə saxlamaq çinovnik üçün daha asan idi) və onun özünün də, ailəsinin də toxunulmazlığı müəyyən mənada təmin olunurdu. Bütün bunlar isə az iş deyildi. Yaşamaq və mövcud olmaq. M.F.Axundzadə yaşamağı seçdi. Bununla da mövcud olmağı həyat devizi seçənlərin süstlüyünə, passivliyinə sarsıdıcı zərbə vurdu. Onlar əvvəlcə Axundzadəyə gülürdülər, sonra qəzəbləndilər, əvvəlcə mehriban idilər,

sonra düşmən kəsildilər, çünki onun simasında inamlı, inadkar və ən qorxulu düşmən görürdülər: axı, Axundzadə döyüş mübarizi deyildi, fikir mübarizi idi, axı Axundzadə top-tüfənglə silahlanmamışdı, onun yeganə silahı, özü demişkən, davat və qələm idi. Onların böyük əksəriyyəti isə məhz qələmdən – sözdən, onun təsir gücündən qorxurdular.

Axundzadənin Tiflisə – çar idarəsinə qulluğa ümüdlə və ya ümidsiz getməsindən asılı olmayaraq, tezliklə onun bütün illüziyaları dağıldı. "Şərq poeması" ancaq böyük bir şairə yaradıcılığa təzə başlayan sənətkarın hörməti, ehtiramı deyildi, "Şərq poeması" həm də mütləqiyyətin həqiqi sənətə, əsl sənətkara qarşı mürtəce mövqeyinin, çarizmin müstəmləkə siyasətinin bütün çılpaqlığı ilə dərk olunması idi. A.S.Puşkin kimi sənətkarı öldürən "qatillərdən" M.F.Axundzadə əsarətdə qalan xalqların sənətkarına və sənətinə qarşı heç bir hörmət, qayğı gözləmirdi. Amma yaşamaq və yaratmaq üçün vəzifəyə sadiqlik lazım gəlirdi. Can yandırmaq tələb olunurdu ki, xaç və medalların sayı artsın, rütbəcə yüksəlsin (sənədlərdən bəllidir ki, M.F.Axundzadə çar ordusunda zabit rutbəsinə maddi çətinlikləri ilə əlaqədar qəbul olunmuşdur). Əks təqdirdə Axundzadənin əsərlərinin tamaşaya qoyulmasına rəsmi dairələrin xüsusi diqqət yetirməsi, pyeslər kitabının nəşrinə dövlət yardımının alınması, əlifba layihəsi ilə əlaqədar Türkiyəyə getməsi mümkün olmazdı. Paqon və qələm, çinovniklik və yaradıcılıq, vəzifə, rütbə və vətəndaşlıq – Axundzadə heç vaxt alternativ qarşısında qalmayıb, amma o, qələmin faydası naminə paqondan imtina etməyib, əksinə, paqonun imtiyazlarını, imkanlarını məhz qələmin namuslu, vicdanlı və səmərəli xidmətinin tabeliyində saxlayıb. Bu da təsadüfi deyil, çünki "epoletlər, imtiyazlar, xaç və medallarla bəzənmiş paltarın altında od tutub alışmaqda olan bir ürək döyünməkdə idi" (Ə.Haqverdiyev).

XIX əsrdə milli regionlarda şərait elə bir dözülməz hala çatmışdı ki, bir nəfərin və ya bir neçə şəxsiyyətin ictimai fəaliyyətindən nicat gözləmək mümkün deyildi. Xalqın əsrlər boyu qazandığı və milli özünəməxsusluq kimi formalaşdırıb yaşatdığı bir sıra həyat prinsipləri, etik normalar... nizamlayıcı təsir gücünü tədricən itirmişdi. Bəylərin bəyliyi əllərindən alınmışdı, ruhanilər

ictimai həyatdan uzaqlaşdırılmışdı, ağsaqqalların müdrikliyindən məqsədli şəkildə istifadə olunmurdu.... Xalqın dədə-baba qaydasında yaşamasını çar çinovnikləri istəmirdi, çarizmin istədiyi, tələb etdiyi kimi isə xalq yaşaya bilmirdi. Ağır həyat tərzi, kütləvi savadsızlıq bir tərəfdən, çarizmin müstəmləkəçilik siyasəti digər tərəfdən – xalqın güzəranını kəskin şəkildə ağırlaşdırmışdı. M.F.Axundzadə məktublarının birində yazırdı: “Xalqımızın vəziyyəti isə elədir ki, onu düşündükdə insan ağlamaq istəyir”. Canından artıq sevdiyi xalqının bu “ağlamalı” vəziyyətini bu və ya digər dərəcədə yüngülləşdirmək məqsədi ilə Axundov bədii sözün öz dövrü üçün daha kütləvi təsir gücünə malik yeni formasından istifadə edir. Altı komediyası ilə Azərbaycan ədəbiyyatında dram növünün əsasını qoyur, milli teatrın yaranma tarixi onun komediyasının tamaşasından başlayır.

Onun bədii əsərləri – dramaturgiyası (“Hekayəti-molla İbrahimxəlil kimyagər”, “Hekayəti-müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah cadukünі-məşhur”, “Hekayəti-xırsi-quldurbasan”, “Sərgüzəşti-vəziri-xani-Lənkəran”, “Sərgüzəşti-mərdi xəsis (Hacı Qara)”, “Mürafiə vəkillərinin hekayəti”), nəsri – “Aldanmış kəvakib” kamilliyi, bədii dəyəri ilə seçilən elə sənət nümunələrindən ibarətdir ki, Axundzadənin gülüşü ilə göz yaşları bir-birindən seçilmir. Onun əsərlərində F.Köçərli demişkən, “gülmək görünür, amma göz yaşları dərunidir, görünmür. Onun ağır damcıları ürəyin üstünə düşüb onu dəlir, yaralayır...”. Görkəmli sənətkarı ancaq kiçik adamların taleyi maraqlandırmır. O, şahdan, vəzirdən, bəydən, tacirdən, vəkildən... danışanda da mənsub olduğu xalqın bir nümayəndəsindən söhbət açdığını unutmur, məhz xalqın bəyinə, xalqın cadugərinə... xalqın avamına münasibətini bildirir. Buna görə də onun əsərlərində kimə (xana, xəsisə və s.) qarşı yönəlməsindən asılı olmayaraq, gülüşün arxasında ağrıyan, yanan bir ürəyin göz yaşlarının durduğu aydın duyulur.

M.F.Axundzadənin mövzusundan, problemindən, ideyasından asılı olmayaraq, hər bir əsəri xalq ruhunun, inamının, adət-ənənəsinin, psixologiyasının, həyat və yaşayış tərzinin canlı ifadəsi idi. Yazıçı yeri gələndə mifoloji inamlardan istifadə

edirdi, lazım bildiyi məqamlarda xalq deyim və ifadələrindən yararlanırdı. Həyata dərindən bələd sənətkar inkişafın istiqamətini, xarakterini öncədən görə və əsərlərində ifadəsini verə bilirdi (Məsələn, “Hacı Qara” əsərində tacir Hacı Qara ilə Heydər bəyin müqayisəli planda təsviri və öldürülən, məhv olan bəyliyin öz yerini tacirliyə verməsini xatırlamaq mümkündür). Povesti ilə müqayisədə komediyalarının dili sadə, canlı, anlaşıqlı və xəlqi idi. Bunu nəzərə alan akademik M.Arif haqlı yazırdı ki, “xalq dili M.F.Axundovun xatirəsini Azərbaycan xalqının qəlbində əbədiləşdirməyə kifayətdir”.

İlk dəfə kritika, roman, komediya və s. kimi ədəbi terminləri işlədən, sənətkarların bir-birlərinə yazdıqları məktubları ədəbi-tarixi fakt kimi qoruyub saxlamağı məsləhət görən M.F.Axundzadə həm də Avropa filoloji fikrin tələblərinə uyğun tənqidi, elmi-nəzəri əsərlər yaradan peşəkar tənqidçi idi.

Ömrünün və yaradıcılığının hər bir mərhələsində M.F.Axundzadə özünü sənətkar kimi, vətəndaş kimi yenidən, təkrar yetişdirmək, yaratmaq məcburiyyətində idi. Bədii yaradıcılıqla yanaşı, o ömrünün sonuna qədər “Kəmalüddövlənin məktubları” traktatının nəşrinə və əlifba layihəsinin həyata keçirilməsinə çalışmışdır. Onun yaşadığı ömrünün dəyəri, mənalılığı bu iki arzusu uğrunda mübarizədə daha qabarıq nəzərə çarpır. “Mən o həriflərdən deyiləm ki, düşmən qarşısında diz çöküb onların əmrinə tabe olam. Nə qədər ki, sağam... qələmimlə vuruşacağam”. Qələm mübarizi özünün bu sözünə, daha doğrusu, andına son nəfəsinə qədər sadiq qaldı. Mirzə Cəlil demişkən, “əl vurduğu məsələlərin hamısından “qan qoxusu” gələn” Axundzadənin düşmənləri çox idi. O, siyasi, sinfi mübarizə aparmadığı üçün düşmənini qabaqcadan tanımırdı, buna görə də onun düşmənlərinin tərkibi müxtəlif və zəngin idi – xan da vardı, çinovnik də, şair də vardı, jurnalist də... Amma qəribə və hətta təəccüblü görünsə də, Axundzadənin əsas düşmənlərindən biri... məhz “Axundzadənin özü” olmuşdur. Düşmənlərə qarşı mübarizəyə qədər Axundzadə özünə qarşı mübarizə aparmışdır, özünütəsdiqi özü ilə mübarizədə qazanmışdı.

Məgər o, başqa bir ömür yaşaya bilməzdimi? Taleyini İnsan kimi yox, insan kimi başa vura bilməzdimi? Dərdi çəkilən xalqın milyonlardan biri yox, milyonların dərdini çəkən onlardan, yüzlərdən biri olmaq – bu ömür yolunu özü könüllü seçmişdi, heç kəs onu məcbur etməmişdi. Müqəddəs kitabın yazıldığı əlifbanın islahatı fikrinə düşdü, məqsədinə çatmadı, müasirlərinin nifrətini və qəzəbini qazandı, hətta bir çox ziyalılar onun təşəbbüsünü bu gün də bağışlaya bilmirlər. Halbuki əlifba islahatı ideyasına türk ziyalıları ondan çox-çox əvvəl düşmüşdülər, bir çox Şərq ölkələrində onun davamçıları yetişmişdi. Axundzadənin bəraətə ehtiyacı yoxdu, amma dəqiq və obyektiv münasibətə ehtiyacı çoxdur. Ədəbi-bədii inkişafı tilsimdən qurtarmaq məqsədi ilə Füzuli kimi dahiyə subyektiv yanaşdı. Amma biz əksər hallarda ədəbiyyat tarixində belə faktların olduğunu unuduruq və Axundzadə ilə əlaqədar qeyri-dəqiq, yanlış mülahizəmizi təsdiq etmək üçün bu faktdan yapışırıq.

"Hicrətdən bu günə qədər bu sərtlikdə bir əsər yazılmamışdı". "Kəmalüddövlənin məktubları" kimi bir əsəri – fəlsəfi traktatı yazmaq, bütün dinlərə, o cümlədən islam dininə qarşı çıxmaq lazım idimi? Lazım idisə kimə? Nəyə? Nə üçün? İslam dininə həddindən artıq sərt yanaşmaqla onsuz da çox olan düşmənlərin sayını daha da artırmağa dəyərdimi? Əlifba islahatı və ya müsəlmançılığa qarşı barışmaz mübarizə maariflənməyin yeganə yolu idimi? Axundzadə bu fikrə düşəndə, tarktatını yazanda nə var-dövlət arzusundaydı, nə də şan-şöhrət umurdu. "Mənim istədiyim ümumun xeyridir. Yoxsa, allaha şükürlər olsun ki, mənim yaşayış vəsaitim və asayişim başqa yollarla da təmindir. Bu cür işlərdən qazanca ehtiyacım yoxdur". Halbuki məqsədinin həyata keçməsi üçün o, öz pulunu xərcləyirdi. Axundzadə nə İslam dininə nifrət edirdi, nə də İslam xalqlarına. "İslam xalqları fitri qabiliyyət nöqteyi-nəzərindən bütün Avropa xalqlarından üstün olmasalar da, əskik deyildirlər". O, bütün dinlərin puçluğuna inanırdı, inamını əsaslandırmaq üçün dərindən və incəliyinə qədər bildiyi İslam dininə istinad edirdi.

İndiki halında məsələ inamla inamsızlığın sənətkar içində gedən amansız mübarizəsindədir. Axundzadə inanırdı – özünə, əqidəsinə, idealına, gördüyü işlərin faydasına. Amma müasirlərinin süstlüyü, biganəliyi, laqeydliyi, bəzən onun inamına inamsızlıq toxumu səpirdi və bu zaman o, ümidsizləşir, bədbinləşir, yaşadığı ömrün peşmançılığını çəkirdi: "Kaş, anadan doğulmayaydıq. Doğulsaq da, kaş başqaları kimi olaydıq ki, yeməkdən, içməkdən, geyinməkdən ləzzət alıb, nəticəsiz və aqibəti olmayan arzu və məqsədlər ardınca gedəydik".

Hər bir təşəbbüsünün faydasına, vacibliyinə ilk növbədə özü inanmaq istəyirdi. Narahatçılığına səbəb olmuş suallara qəti cavab vermək, heç kəsin heç nəyi dəyişdirə bilməyəcəyi bir qərara gəlmək, şübhələrə, inamsızlıqlara, bəlkələrə son qoymaq Axundzadənin konkret bir işə başlayana qədərki günlərinin faciəsi idi. Faciəni övladlarının dalbadal ölməsi daha da gücləndirirdi. Onun faciəsi meydanda çox vaxt tək qalan bir şəxsiyyətin, övlad itkisinin ağrısından gileylənən bir atanın faciəsi deyildi, onun faciəsi bütövlükdə cəmiyyətin simasında ifadə olunmuş ölümlə oynayan bir İnsanın faciəsi idi. Ömrünün ahıl çağlarındakı şeirlərinin birində Axundzadə yazırdı: "Səbuhi ki, əyilməzdi şahların qabağında, Gözəlliyə əsir oldu bu ixtiyar çağında". Mənəvi dünyasındakı gözəlliyə vurğunluq dərdi unutmağa zəif bir təşəbbüs idi. Ömür yaşanmışdı, ağrıyla yaşanmışdı, yaşamağa nə qalmışdı. Yenədəmi dərd, yenədəmi ağrı?!... Amma o, təslim olmurdu, əlindən gələni görürdü – mümkün olanları və mümkün olmayanları...

Xalqın taleyində yeni bir mərhələyə çevriləcək işin, əməlin məsuliyyəti, çavabdehliyi əbədi qalır. Başlanan işin sonrakı peşmançılığı vicdan əzabına çevrilir, amma ləkə addan, imzadan əsrlərlə silinmir. Axundzadə bundan, bunun əzabından qorxur, çəkinirdi. Onun düşməni bu qorxu, bu xof idi, mübarizəsi bu qorxuya, xofa qarşı idi, cəfakeş Axundzadənin xoşbəxtliyi məhz bu qorxuya, xofa qalib gəlməsində idi. O, gördüyü işlərlə əsri yaradırdı, buna görə də səhv eləməməyə çalışırdı. Onun məğlubiyyəti – ideyalarının həyata keçməməsi həm də onun qələbəsi idi, çünki

Şərqdə bu ideyalarla yaşayan axundovçular yetişmişdi. Təsadüfi deyil ki, Mirzə Melkum xan ona məktubunda yazırdı: “Siz böyük bir məramın böyük atasısız, biz isə Sizin məramınız uğrunda çarpışan mücahidlərik; haqq bizim tərəfimizdə olduğundan, mən əminəm ki, tez və ya keç bizim səylərimiz böyük nəticələr verəcəkdir”.

Axundzadə namuslu ömür yaşamışdı, tarixdə, yaddaşlarda olduğundan artıq görünməyə çalışmayıbdı. Çünki “mən xalqı sevən, canımı bu yolda qurban verməyə hazır olan bir insanam” deyən M.F.Axundzadənin heç də hər bir ziyalıya, vətəndaşa nəsib olmayan təskinliyə tam haqqı vardı: “Mən xalqın elə bir üzvüyəm ki, fikrim, davat və qələmimdən başqa heç şeyə əlim çatmır və əlimdən gələn hər işi görmüşəm”.

Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə M.F.Axundzadənin anadan olmasının 200 illiyi ölkəmizdə dövlət səviyyəsində qeyd olunur. Böyük sənətkarın və mütəfəkkirin adını daşıyan Milli Kitabxana söz və fikir bayramında həm də M.F.Axundzadənin yeni biblioqrafiyasını hazırlamaqla iştirak edir. Ümid edirik ki, gərgin zəhmətin sayəsində ərsəyə gəlmiş biblioqrafiya işıq üzü görən əsərlərin heç də hamısının kitabxanalara çatdırılmadığı və sənədləşdirilmədiyi indiki vaxtda Axundzadəsevərlərin bələdçisi olacaqdır.

“Mükafatını vicdanından alan” (S.S.Axundov) M.F.Axundzadənin 200 illik yubileyi günlərində Milli Kitabxananın əməkdaşlarının mənəvi haqqı çatır ki, görkəmli sənətkar kimi desinlər: biz bu yubileyin layiqincə keçirilməsi üçün əlimizdən gələn mümkün işlərin hamısın görməyə çalışmışıq.

**Arif Əmrahoğlu,**
*AzərbaycanYazıçılar Birliyinin katibi,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*tənqidçi-ədəbiyyatşünas*

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN HƏYATI, YARADICILIĞI VƏ İCTİMAİ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**1812** - M.F.Axundzadə iyun ayının 30-da Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur.

**1814** - Ailəsi Nuxa şəhərindən atasının vətəni Təbrizin yaxınlığındakı Xamnə kəndinə köçmüşdür.

**1821** - Anası Nənəxanım Fətəlinin atası Mirzə Məhəmməd Tağıdan ayrılmış, onunla birgə Qaradağda (Cənubi Azərbaycanda) Horanid kəndində yaşayan əmisi Axund Ələsgərin yanına gəlmiş və onun himayəsində yaşamışdır.

**1823-1824** - Hacı Ələsgərlə Eləngut mahalına köçmüş, burada Vəlibəyli kəndində yaşamışlar.

**1825** - Ailəsi Vəlibəyli kəndindən Gəncəyə köçmüşdür.

**1826-1831** - Hacı Ələsgərlə Gəncədən Nuxa şəhərinə köçmüşdür.

**1832** - Gəncəyə gəlib, şair və müəllim Mirzə Şəfi Vazeh ilə tanış olmuş və ondan nəstəliq xəttilə yazmağı öyrənmişdir.

**1833** - 21 yaşında ikən Nuxa şəhərində açılan "Rus-tatar" məktəbinə daxil olmuşdur.

**1834** - Tiflis şəhərinə getmiş, Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunmuş və ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır.

**1836** - Qafqaz idarəsinin baş dəftərxanasında işləməklə bərabər, Tiflis qəza məktəbinə Azərbaycan dili müəllimi təyin edilmişdir.

**1837** - Rus şairi A.S.Puşkinin xatirəsinə "Puşkinin ölümü haqqında Şərq poeması"nı yazmışdır.

**1841** - "Təcnis", "Təcnisi digər", "Molla Əli" (həcv) və "Müxəmməs" sərlövhəli şeirlərini yazmışdır.

**1842** - Axund Hacı Ələsgərin qızı Tubu xanımla evlənmiş, ondan 13 övladı dünyaya gəlmiş, onlardan yalnız ikisi, Rəşidbəy və qızı Nisə xanım qalmış, qalanları isə Mirzə Fətəlinin sağlığında ikən vəfat etmişlər;
- İyul ayının 3-də M.F.Axundzadəyə mülki praporşik rütbəsi verilmişdir;
- Rusiya ilə İran hökumətləri arasında danışıqlarda iştirak etdiyi üçün İran şahı tərəfindən üçüncü dərəcəli "Şiri-Xurşid" nişanı ilə təltif olunmuşdur.

**1849** - İrandan Tiflisə qayıtmışdır.

**1850** - M.F.Axundzadəyə poruçik rütbəsi verilmişdir; "Hekayəti-Molla İbrahim Xəlil kimyagər", "Hekayəti Müsyo Jordan həkimi nəbatat və Dərviş Məstəli şah cadukuni-məşhur", "Sərgüzəşti vəziri-xani-Lənkəran" komediyalarını yazmışdır.

**1851** - "Hekayəti Müsyo Jordan həkimi nəbatat və Dərviş Məstəli şah cadukuni-məşhur" komediyası ilk dəfə Tiflisdə "Kavkaz" qəzetində rus dilində hissə-hissə çap olunmuş, komediya ilk dəfə Peterburqda rus dilində oynanılmışdır;

- Mart ayının 26-da M.F.Axundzadə İmperator rus coğrafiya cəmiyyəti Qafqaz şöbəsinə həqiqi üzv seçilmişdir.

**1852** - "Hekayəti - xırs quldurbasan" və "Sərgüzəşti-mərdi-xəsis" (Hacı Qara) komediyalarını yazmışdır;

- Yanvar ayının 31-də "Hekayəti -xırs quldurbasan" komediyası Tiflis teatrında rus dilində oynanılmışdır.

**1854** - M.F.Axundzadəyə kapitan rütbəsi verilmişdir.

**1855** - "Mürafiə vəkillərinin hekayəti" komediyasını yazmışdır.

**1857** - "Aldanmış kəvakib" povestini yazmışdır.

**1858** - Qafqaz canişini dəftərxanasının yenidən təşkili ilə əlaqədar olaraq, canişin baş idarəsinin mütərcimi təyin olunmuşdur.

**1859** - Komediyalarını və "Aldanmış kəvakib" povestini "Təmsilat" başlığı altında Qafqaz canişinliyinin Tiflisdəki nəşriyyatında kitab halında çap etdirmişdir.

**1861** - M.F.Axundzadəyə mayor rütbəsi verilmişdir.

**1863-1864** - Tərtib etdiyi əlifbanı müdafiə üçün İstanbula getmişdir. Bu səfərində Mirzə Məlkümxan ilə tanış olmuşdur. Həmin ildə "Çeşmə kitabəsi", "Səidə xitab", "Fuad Paşanın mədhi" adlı mənzumələri və "Kəmalüddövlə məktubları" adlı məşhur fəlsəfi əsərini yazmışdır.

**1865** - "Həcvi-Əbdürrəsülxan" adlı əsərini yazmışdır.

**1868** - "Həkimi-ingilis Yuma cavab" adlı əsərini yazmışdır.

**1869** - "Yeni əlifba haqqında mənzumə" adlı əsərini yazmışdır.

**1872** - May ayının 18-də Qafqaz Canişini Baş İdarəsinin sərəncamı ilə Şərq dilləri üzrə senzor vəzifəsinə təyin edilmişdir.

**1873** - Ona hərbi rütbə – polkovnik rütbəsi verilmişdir;
- 8 martda "Hekayəti vəziri-xani-Lənkəran" pyesi Bakıda tamaşaya qoyulmuşdur;
- İyunda "Hacı Qara" pyesi Bakıda tamaşaya qoyulmuşdur.

**1874** - Yeni əlifbaya aid və hürufi-samitə müsəvvədənin latın və ərəb əlifbası üzrə quruluşunu təsvir edən cədvəl düzəltmişdir.

**1878** - Fevral ayının 26-da Tiflis şəhərində ürək xəstəliyindən vəfat etmişdir.

**1930** - İndiki Səbail rayonunda M.F.Axundzadənin adını daşıyan bağçada heykəli qoyulmuşdur (heykəltəraş P.Sabsay).

**1938** - Azərbaycan SSR XKS-də, M.F.Axundzadənin anadan olmasının 125 illiyini keçirmək barəsində qərar qəbul edilmişdir.

**1939** - İyun ayının 1-də Azərbaycan Dövlət Ümumi Kitabxanasına (hazırda M.F.Axundzadə ad. Milli Kitabxana) ədibin adı verilmişdir.

**1940** - Şəkidə görkəmli mütəfəkkirin ev-muzeyi onun dünyaya göz açdığı küçədə (indiki M.F.Axundzadə küçəsi), 1 saylı ünvanda yerləşən binada yaradılmışdır.

**1962** - M.F.Axundzadənin anadan olmasının 150 illik yubileyi Ümumdünya Sülh Şurasının qərarı ilə keçirilmiş, Ümumittifaq miqyasında təntənə ilə qeyd olunmuşdur;
- M.F.Axundzadə adına Kitabxanada heykəltəraş İ.Zeynalovun hazırladığı büstü qoyulmuşdur.

**1965** - M.F.Axundzadə adına üç Respublika Dövlət mükafatının təsis edilməsi haqqında qərar qəbul edilmişdir.

**1982** - Azərbaycan KP MK-nın qərarı ilə M.F.Axundzadənin anadan olmasının 170 illiyi keçirilmişdir.

**1983** - Tbilisidə M.F.Axundzadənin ev-muzeyi və Azərbaycan Mədəniyyət Mərkəzi açılmışdır.

**2005** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə

M.F.Axundzadənin əsərlərinin 3 cildliyi nəşr olunmuşdur.

**2007** - Ədibin Tbilisi şəhərində yerləşən ev-muzeyi, sonralar Azərbaycan Mədəniyyət Mərkəzi kimi, 2007-ci ildən isə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi adı ilə fəaliyyət göstərməyə başlamışdır.

**2010** - Aprel ayının 13-də Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır.

**2011** - İyun ayının 30-da Azərbaycanın Gürcüstandakı səfirliyinin və Tbilisi şəhər bələdiyyəsinin təşəbbüsü ilə böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin Tbilisidə adını daşıyan 73 saylı Azərbaycan orta məktəbinin binası qarşısında büstü qoyulmuşdur.

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN SEÇİLMİŞ FİKİRLƏRİ

Mənim məqsədim... cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün... ədalətə rəvac verməkdir.

* * *

Oxumuşların sayı çox olan ölkələrdə təfəkkür sahiblərinin sayı da çox olur. Təfəkkür sahiblərinin çox olduğu ölkədə isə həyatın bütün sahələrində xalq gündən-günə tərəqqi edə bilər.

* * *

Bu gün millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsər yaratmaq lazımdır. Bunun üçün gözəl məzmun tapmaq yaradıcı təbin xüsusiyyətlərindəndir.

* * *

İndi bizim müxtəlif elmlərə aid kitabımız yoxdursa, yaxın gələcəkdə biz də dünyanın mədəni ölkələrinin malik olduğu bir çox kitabları, o cümlədən tibb, hikmət, hesab, coğrafiya, hərbi iş, dənizçilik, mühəndislik, tarix, inşa, idarə üsulu, məişət, əkinçilik, səyyahlıq, mədənşünaslıq, təbiət, astronomiya, heyət, kimya və bunlar kimi faydalı elmlərə aid kitabları əldə edəcək, xalqların malik olduğu müxtəlif elmlərə və hünərlərə yiyələnəcəyik.

* * *

...Yaxın gələcəkdə vətənimiz yadların ardınca gedənlərin mənhus vücudundan təmizlənəcəkdir! Yurdumuz yenidən gülüstana çevriləcəkdir.

* * *

Mənim xalqımın fitri istedadı Avropa xalqlarının fitri istedadından qat-qat artıqdır.

* * *

Dinin əsas məqsədi əxlaqdır.

* * *

İnsanların yeddi vəzifəsi vardır. Əgər insan bütün bu vəzifələri yerinə yetirərsə, bu halda kamil insan sayılır, əgər o bunların bir hissəsini yerinə yetirərsə, natamam insan sayılır, əgər o bu yeddi vəzifənin heç birinə əməl etmirsə, deməli insan qismindən çıxır və heyvan qisminə daxil olur. Birinci vəzifə bundan ibarətdir ki, insan pis əməllərdən uzaq olsun. İkinci vəzifə xeyir işlər görməkdir. Üçüncü vəzifə zülmə qarşı mübarizə aparmaqdır. Dördüncü vəzifə cəmiyyətdə öz yoldaşları ilə ittifaqda yaşamaqdır. Beşinci vəzifə elm yolu ilə getməkdir. Altıncı vəzifə elmi hər yanda yaymağa çalışmaqdır. Yeddinci vəzifə ondan ibarətdir ki, insan öz qüvvəsi, imkanı daxilində onunla ittifaqda olan cəmiyyətdə, öz həmvətənləri və həmfikirləri arasında qanuni hüquqlarının müdafiəsi üçün mübarizə aparsın.

* * *

Mirzə Şəfi bütün mətalibi ürfaliyyəti mənə təlğin etdi və gözümün qabağından qəflət pərdəsini qaldırdı. Bu hadisədən sonra ruhanilikdən nifrət etdim və öz fikrimi dəyişdirdim.

* * *

Dünyada heç bir nemət həyatın əvəzi ola bilməz və onu hər cüzi şey üstündə və ədalət pərdəsi altında azad insanlardan almaq olmaz.

* * *

Qəzəblənmək həmişə acıqdan olmur, süstlükdən və qayda-qanunsuzluqdan dəxi əmələ gəlir.

* * *

Yazıçılar bəşəriyyətin ən şərəfli nümayəndələridir.

* * *

Millət özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: səltənət və hökumət büsatından əl çək!

* * *

İnsan növünün tərəqqisi ağıl iledir.

* * *

Fəsahətli kəlam ondan ibarətdir ki, müxtəsər və aydın olsun.

* * *

Pis və çirkin adətləri insanın qəlbindən tənqid, istehza və məsxərədən başqa heç bir şey qoparıb çıxara bilməz.

* * *

Sərxoşluq əxlaqca pozulmanın ən eybəcər əlamətidir.

* * *

Və məndən ancaq əndazə və nümunə göstərmək idi və baniyi-kar olmaq.

* * *

Elm bəşəriyyəti asudəçilik və səadətə doğru aparır.

* * *

"Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, imlanın düzgünlüyü olmalıdır".

* * *

Vətən sevgisi üzündən, çox tədbirlərə əl atdım...

* * *

Əgər yaxşı dost axtarırsansa, özün yaxşı dost ol. Çünki dost axtaran kəs asanlıqla səni tapsın.

* * *

Nə qədər ki, sağam, İstambul nazirlərinə qarşı qələmimlə vuruşacağam. Mən və mənim yavərim siz öldükdən sonra bizim müasirlərimizin nə dərəcədə şüursuz olduğunu görən gələcək nəsil minlərcə dəfə halımıza heyfslənəcək, bizim fikrimizi həyata keçirəcək və qəbrimizin üzərində heykəllər qoyacaqlar...

* * *

Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti ortadan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahi və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün və islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şövkətin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir.

* * *

Elmin faydası o zaman olur ki, Prus xalqı və Yengüdünya xalqı kimi bütün camaat qadınlı-kişili elm oxumuş olsun.., çobanlarımız... və qadınlarımız... oxumağı və yazmağı bacarsınlar.

* * *

...Bəşər övladına səadət və qurtuluş o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insanın şüuru tamamilə əbədi həbsdən xilas olsun və bütün işlərdə də, təfəkkürdə də hadisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi-mütləq olsun.

* * *

Canlılar aləmində insan daima tərəqqi tələb edən bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar. Sivilizasyon elə bir ümumi sözdür ki, onun məzmununda bütün sənətlər,

fəndlər, qüdrəti-dövlət, millətin asayişi və mədəniyyətin bu kimi şərtləri cəm olmuşdur. Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə onları ata-babanın və övliyaların qərar verdikləri şeylərlə kifayət etməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu surətdə fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomat olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışı dünyanın axırına qədər təkrar edərlər. Və bu biçarə atların hərgiz xətri olmaz ki, dünyada çəmənlər, otlaqlar, çayırlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; əgər bağlı olmasaydılar, dünyada gəzərdilər və o könül açan yerləri görərdilər və dünya nemətlərindən tamamilə faydalanmış olardılar.

* * *

Mən sağ ikən komediyamın öz dilimizdə tamaşaya qoyulması mənim üçün böyük xoşbəxtlikdir.

Bu gün "Hacı Qara"nı öz dilimizdə səhnədə göstərməklə mənim ömrümün üstündə on il də artırdınız...

Bakıya gəlib bu ilk tamaşanı öz gözlərimlə görmədiyim üçün təəssüf edirəm.

* * *

"…bu kainat bir qüvveyi-vahidə və kamilədir, əvvəli də budur, axırı da budur; nə əvvəl ona sibqət edibdir, nə axır ona xatəmə olacaqdır, zaman da onun mütəziyatındandır, məkan da onun təkəyyüfatındandır".

* * *

"Əgər hətta bütün aləm mənə qarşı çıxsa belə, mən öz fikrimdən dönməyəcəyəm, işimi onqat artıracağam…"

* * *

"...Varlıqdan məqsədimiz əşyanın mahiyyətidir və bu mahiyyət bu varlıqdır" - heysiyyətincə şamil və əhatəedicidir; yəni maddeyi-kəsəratın cəmedicisidir. Kəsarət isə öz növləşmə və dəyişmələrində bir-birinə möhtacdır".

* * *

"...Külli-varlıq heysiyyətincə vahid, kamil və mühitdir; yəni bütün çoxluqların maddəsinin cameyidir... Deməli, əşyanın mahiyyəti vacibül-vücuddur və əşyanın məcmuu olan kainat başqa mahiyyətə möhtac deyildir və bir səbəbə ehtiyacı yoxdur..."

* * *

"Gözə görünməyən, hiss edilməyən və duyulmayan şey mövcud da deyil".

* * *

"Zahirdə ağıla gələn budur ki, bu dünya başqa dəyişiklik tapmasa və insan övladı başqa bir təbiət və xilqət əldə etməsə, bu dünyada millətlərin bu vəziyyət və tərkibləri... ilə bərabərlik mümkün deyildir".

* * *

Bədii əsər gərək mükəmməl, nöqsansız və xoşagələn olsun. O, həm forma, həm də məzmununa görə gözəl olmalıdır.

* * *

"...Mənim əlifbam yüz ildən sonra Şərq ədəbiyyatında fəxri yer tutacaq və o əlifbada yeni-yeni əsərlər meydana çıxmaqla yanaşı, köhnə əlifba ilə olan bir çox köhnə kitablar da həmin əlifbaya köçürüləcəkdir. Əlbəttə, belə olduqda mənim məqsədim yerinə çatacaq və o xoşbəxt günlərə qədər yaşamasam da, əvvəlcədən bu xüsusda asudə ola bilərəm".

* * *

“İstedadsız, qabiliyyətsiz və paxıl adamlara qulaq asmaq lazım deyil. İstedadsız olduqlarına görə, onlar başqalarında nöqsan axtarırlar ki, bununla öz qüsurlarını ört-basdır etsinlər”.

* * *

“Xalqların müxtəlif vasitələrlə tərəqqi etməyə nail olduqları göz qabağındadır…”

* * *

“Bu qədər var ki, mən külli-ədyanı puç və əfsanə hesab edirəm”.

* * *

“…Bizim ruhanilərimizin ruhların bədəndən ayrıldıqdan sonra xüsusi yerlərdə öz-özlərinə zərfsiz və qəlibsiz yaşamaları haqqındakı təsəvvürləri, fikirləri və əqidələri heç bir tənqid qarşısında dayana bilməz”.

* * *

“Əgər desəm ki, bir vücudun öz-özünə meydana gəlməsi mümkün deyildir və bu kainat gərək başqa bir vücudun iradəsi ilə yaranmış ola, o zaman haman vücudun özü də varlıq olduğu üçün, gərək başqa bir vücudun iradəsindən asılı ola və habelə o vücud da başqa bir vücudun istəyinə möhtac ola”.

* * *

“Aya, padşaha güllə atan babilərin yenidən bu kimi bir əmələ iqdam etməyəcəklərini haradan bilmək olar?”

* * *

“Mən mədəniyyəti sevən hər kəsin tərəfdarıyam. Mən bəşəriyyəti sevən hər kəsin nökəriyəm. Mənim insan düşmənini görən gözüm yoxdur, mən sivilizasiyanın yolunu kəsən, ona mane olan hər kəsə nifrət edirəm. Mən belələrindən uzaq dolanıram. Onlar mənə iyrənc görünürlər”.

# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN YARADICILIĞI VƏ FƏALİYYƏTİ HAQQINDA

Mirzə Fətəli Axundov islam dəyərlərini ən gözəl bilən şəxsiyyətlərdən biri olubdur. Amma eyni zamanda o, Azərbaycanın milli-mənəvi dəyərlərini, islam dəyərlərini ümumbəşəri, Avropa dəyərləri ilə zənginləşdirərək dahiyanə və xalqımızın inkişafına çox böyük təsir göstərmiş əsərlər yaratmışdır.

* * *

Dahi mütəfəkkir Mirzə Fətəli Axundovun ədəbiyyatımıza dram janrını gətirməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynadı.

***Heydər Əliyev,***
*Azərbaycan xalqının ümummilli lideri*

Milli ədiblərimizin atası, təmsilat (dram) yazanlarımızın ustadi-kamili, ədəbiyyatımızın fəxri, şəkkü-şübhəsiz, mərhum Mirzə Fətəli Axundovdur ki, onun qələmindən ədəbiyyatın hər növ əsərləri vücuda gəlibdir: bimisl komediyalar, tənqidə dair gözəl məqalələr, abidar şeirlər, fars və türk dillərində şirin hekayələr və qeyriləri. Mirzə Fətəlinin təbində elə bir zəriflik, yaratmaqlıq qüdrəti, yoxdan vücuda gətirməklik qüvvəsi var imiş ki, bunun misli az mühərrirlərdə müşahidə olunur. Bu bir Allah vergisidir ki, hər qələm əhlinə nəsib olmaz, hər ədiblik iddiasına düşən məsul qalmaz.

Mirzə Fətəli Axundovun komediyalarına gəldikdə qəti surətdə deyə bilərik ki, Qoqol rus və Molyer firəng dram yazanların ustad və pişvəri olduğu kimi, mərhum Axundov da türk –

Azərbaycan ədiblərinin və komediyanəvislərinin atası və yol göstərəni olubdur. Onun komediyalarının mislini bizim Azərbaycan türklərinin dram yazanları hələ bu vaxtadək kamalınca yazıb yetirə bilməyiblər.

***Firudin bəy Köçərli***

M.F.Axundov çox böyük xidmətləri olan şəxsiyyətdir. O, yalnız bizim zəmanəmizdə öz layiqli qiymətini almışdır. Filosof, dramaturq və ictimai xadim olan Axundov öz ölkə-sinin mədəniyyəti ilə rus mədəniyyəti arasında canlı əlaqənin timsalıdır.

***Lui Araqon***

Əsrlərdən bəri sinif ədəbiyyatının çürük və əsassız nəzəriyyələrinin, çeynənmiş mövzularının təsiri altında bayağı bir rəng almış ədəbiyyatımıza yeni cərəyan: yeni ruh, yeni rəng verən Mirzə Fətəlidir.

***Abdulla Şaiq***

Qafqazın canişini knyaz Vorontsov teatrın böyük həvəskarıdır. Son zamanlarda onun maarifpərvər himayəsi sayəsində Tiflisdə iki teatr – rus və gürcü teatrı yaradılmışdır. Bu teatrlarda qoyulan tamaşalar yalnız rusların deyil, yerli əhalinin də diqqətini cəlb edir. Rus teatrının direktoru, "Tarantas" əsərinin müəllifi qraf Solloqub, gürcü teatrının direktoru isə əsərləri öz vətənində misilsiz hesab edilən knyaz Eristovdur. Bu yaxınlarda Tiflisdə yeni gözəl teatr binası tikilib başa çatdırılmışdır və "Kavkaz" qəzetinin müxbiri bu haqda müfəssəl və gözəl təsvirlə məlumat vermişdir. Bir sözlə, teatr Baqration ölkəsində əziz əyləncə olmuşdur və burada qoyulan tamaşalar asiyalılarla avropalılar arasında olan səddin ləğv olunmasına ciddi köməklik göstərir.

Belə düşünmək olar ki, Zaqafqaziyanın müsəlman vilayətlərində yaşayan əhalisi bu cür yeniliyə uzun müddət laqeyd mü-

nasibət bəsləyəcək. Lakin onların arasından da adı öz vətənindən çox-çox uzaqlarda məşhur olacaq dram dahisi – tatar Molyeri meydana gəldi.

M.F.Axundov müsəlmanların ən mədəni simalarındandır və öz komediyaları ilə məşhurdur. Qafqaz müsəlmanları arasında ilk dəfə komediyalar yazmağına görə məşhurdur.

***«Maqazin für die Literatür des. Ayslandes», 1852***
***(alman mətbuatı)***

Mirzə Fətəlinin günahı öz əsərinin əhli-imanları nəzərində vaqeən nəhayət imiş; səbəb budur ki, o, əl vurduğu məsələlərin hamısından "uran qoxusu" gəlirdi.

Mirzə Fətəli Axundovun komediyalarının türk səhnəsində görünməsi əgər bir böyük tarixdirsə, buna iki şey bais olubdur; biri budur ki, Mirzənin komediyaları, ümumiyyətlə, xeyli dəyərli əsərlərdir; elə bir əsərlərdir ki, onlarla nəinki biz, yox mənziləsində olan səhnəmiz fəxr edə bilərdi, bəlkə bir belə pyeslər sair mütəməddin millətlərin səhnələrini zinətləndirməyə qadir ola bilərdilər. Biri də budur ki, Mirzə Fətəlinin komediyalarında Şərq qadını ilk dəfə səhnəyə çıxıbdır, orada danışıbdır, gülübdür, ağlayıbdır və orada birinci dəfə kişilər içində izhari vücud eləyibdir.

…Mirzə Fətəli Axundovun barəsində ya yaxşı yazmaq lazımdır, ya heç yazmamaq lazımdır.

***Cəlil Məmmədquluzadə***

Mirzə Fətəli Axundov Azərbaycan xalqının arasında bir növ Diogen idi: o, gündüzlər əlində fanar xalqın arasında gəzib "adam axtarırdı" və onu tapmırdı. Bu tənhalıq onu olduqca sıxırdı. Özünün bu mənəvi faciəsini o, qəhrəmanlarından biri – "Kimyagər" komediyasındakı şair Nurunun dili ilə ifadə etmişdir.

Mirzə Fətəli öz iksiri ilə gəzərək, bütün ömrü boyu xalqın cəhaləti ilə, mövhumi adətlərlə amansız mübarizə aparmış, öz xalqını sivilizasiyaya, Avropa mədəniyyətinə qovuşmağa çağırmış, xalq isə onu başa düşməyib, dinin düşməni adlandırmışdır.

Mirzə Fətəlinin ömrü ictimai sahəyə qədəm qoyandan axır nəfəsinə qədər böyük bir faciə içərisində keçmişdir. Eopletlər, imtiyazlar, xaç və medallarla bəzənmiş paltarın altında od tutub alışmaqda olan bir ürək döyünməkdə idi.

***Əbdürrəhim bəy Haqverdiyev***

O, öz pyesləri ilə yalnız ədəbi bir inqilab yaratmaqla qalmır, o, eyni zamanda bizdə mədəni və ictimai bir inqilab üçün də zəminə hazırlamış və bu uğurda çalışmaqla birinci addımı atmışdır.

***Seyid Hüseyn***

Mirzə Fətəli Axundov əski sxolastik ədəbiyyatdar, Şərqin yekrəng qəzəl, qəsidə və rübai ədəbiyyatından birinci olaraq ayrılıb yeni bir ədəbiyyat şəklinə ayaq basan və Azərbaycan teatr ədəbiyyatının ilk təməl daşını qoyan ədibdir.

Mirzə Fətəli bir ədib və bir şair olmaqdan daha artıq bir cəmiyyətçi, bir əməlpərvərdi. Onu yazıçılığa təhrik edən də bədii zövqündən daha artıq ictimai məfkurələri idi. O, yazılarını bir sənət adına deyil, biləkə ictimai məfkurəsi adına yazır və öz əsərlərindən sadə bədii bir zövq deyil, həyat və cəmiyyət üçün bir nəticə gözləyirdi. O, ədəbiyyatı öz duyğularının, öz məfkurələrinin bir tərcümanı kimi tanıyır və beləliklə, köhnədən qalmış "sənət, sənət üçündür", "onu ancaq bir neçə ariflər və bilicilər anlarlar" gedişindən ayırıb "sənət həyat üçündür" prinsipini irəli sürürdü.

Mirzə Fətəlinin mühiti köhnə feodalizmin dağıldığı, yeni ticarət burjuaziyasının törədiyi, əski Şərq ənənatının pozulduğu, yeni Qərb mədəniyyətinin araya soxulduğu bir dövrün mücəssəməsidir. Həyatın bir tərəfi sökülür, dağılır, o biri tərəfi başqa, tam və yeni bir biçimdə tikilirdi. Burada Mirzə Fətəli bir mühəndis kimi bu sökülən və tikilən binanın başı yanında durmuş, amansız qələmi ilə "bura sökülməlidir, bura isə belə

tikilməlidir” deyir. Həm də bunları keyfi bir əmrlə demir: köhnə yaşayışın bütün nöqsanlarını, yaramazlığını, yeni gedişin isə bütün faydalarını irəli sürür, anladır, qandırırdı.

Mirzə Fətəli bir rəssamdır. O, öz əsərlərində bütün həyat və mühiti doğruluqla tutur, ən mahir bir rəssamın məharəti ilə təsvir edir.

***Cəfər Cabbarlı***

M.F.Axundovun adı dünya ədəbiyyatı xəzinəsinə Nizami, Xaqani, Vaqif və M.F.Axundovun özü kimi dahi yazıçılar verən Azərbaycan xalqının qəhrəmanlıq və talant simvoludur.

***Səməd Vurğun***

M.F.Axundov öz komediyalarında dövrünün qabaqcıl ideyalarını bədii bir ustalıqla əks etdirmişdir. Bu komediyalar Azərbaycan xalqının fikri və mədəni inkişafında böyük rol oynamışdır. Yüksək bədiilik, xəlqilik, sadəlik, dolğun məzmunluluq, ideyalılıq onun realizminin əsas xüsusiyyətləri olmuş və Azərbaycan sovet dramaturgiyasına ruh vermişdir.

***Məmməd Arif***

Mirzə Fətəli Axundov müstəbid, mürtəce, fanatik mövhumatçı Şərqlə, islam Şərqi ilə əlaqədar olan hər şeyin barışmaz düşməni kimi meydana çıxdı.

Böyük yazıçı və filosof fikrimizi, düşüncəmizi feodalizm, orta əsr bataqlığından çıxardı, bəşəriyyətin qabaqcıl, mütərəqqi şüuru ilə bağladı. O, Azərbaycanda demokratizmin, azadlığın, ateizmin, yaxşı mənada qərbçiliyin mübariz bir carçısı oldu.

***Mirzə İbrahimov***

“Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur” adlı çox maraqlı və orijinal pyesin müəllifi Fət Əli

Axundov haqqında bir şey eşitmişsinizmi? Əlbəttə, yox. Çünki siz rus yazıçılarını çox az oxuyursunuz. Bundan əlavə, Peterburqu ədəbi fəaliyyətin əsas yeri hesab edir və oradan kənarda heç bir şey axtarmırsınız. Lakin cənab Fət Əli Axundov, deyəsən, heç vaxt Peterburqda olmamış və əsərlərini tənək göyərən və qarlı dağları gümüş əklilə bənzəyən bir yerdə nəşr etdirmişdir.

***Osip İvanovuiç Senkovski, 1851***

Mirzə Fət Əli Axundovun istedadı təbii xarakter daşıyır və bu istedad məzmunca bir-birinə bənzəyən kitabların mütaliəsi və bayağı fikirlərin təsiri altında meydana gəlməmişdir. Əksinə, Axundovun istedadı maraqlı hadisələrlə zəngin olan Qafqazda yaşaması, öz xalqının adət-ənənələrini yaxşı bilməsi və müxtəlif xarakterli adamlarla qarşılaşması nəticəsində inkişaf etmişdir…

…Bilmirəm oxucu mənim fikrimə şərik olacaqmı, mənə görə, Axundovun bu pyesi, onun bir qədər qısa olmasına baxmayaraq, son iki ildə rus səhnəsində tamaşaya qoyulmuş və jurnallarda nəşr edilmiş komediyalardan çox yüksəkdə durur…

***Aleksandr Vasilyeviç Drujinin, 1852***

Bu komediyalar göstərir ki, müəllifdə hazırcavablılıq, yumor, müəyyən müşahidə istedadı kimi keyfiyyətlər, bir sözlə, dram əsərləri instinkti vardır…

***Barbiye dö Meynar,***
*fransız şərqşünası*

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN ƏSƏRLƏRİ

## Kitablar

### 1860
### (hicri 1276)

**1. Təmsilat** [Mətn] /M.F.Axundzadə.- Tiflis: Sərkari-əşrəf əmcəd Canişini- Qafqazın basmaxanası, 1276 (1860 miladi).- 286 s.- Ərəb əlifbası ilə.

Kitabın içindəkilər: Fehristi-kitab; Hekayəti-Molla İbrahim Xəlil kimyagər; Hekayəti-Müsyö Jordan həkimi- nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur; Hekayəti-xırs quldurbasan; Hekayəti-və-ziri-xani-Sərab;Hekayəti-mərdi-xəsis (Hacı Qara); Hekayəti-vükəlayi mürafiə; Aldanmış kəvakib (povest).

### 1903

**2. Aldanmış kəvakib və ya hekayəti Yusif şah** [Mətn] /M.F.Axundzadə.- Paris: İmprimerie Nationale, 1903.- 97 s.- Kitab Azərbaycan (ərəb əlifbası ilə) və fransız dillərindədir.

### 1924

**3. Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlaliddövləyə fars dilində yazdığı üç məktubun və Cəlaliddövlənin ona göndərdiyi cavabın türk dilində tərcüməsidir** [Mətn] /M.F.Axundzadə; ön söz S.Ağamalı oğlu. - Bakı: Yeni türk əlifba komitəsi, 1924.- 110 s.- Ərəb əlifbası ilə.

**4. Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlaliddövləyə fars dilində yazdığı üç məktubun və Cəlaliddövlənin ona göndərdiyi cavabın türk dilində tərcüməsidir** [Mətn] /M.F.Axundzadə; ön söz S.Ağamalı oğlu. - Bakı: Yeni türk əlifba komitəsi, 1924.- 74 s.- Latın əlifbası ilə.

**1925**

**5. Müsyo Jordan və Məstəli şah** [Mətn]: 4 pərdəli komediya /M.F.Axundov.- Bakı: Azərnəşr, 1925.- 28 s.

**1926**

**6. Aldanmış kəvakib. Hekayəti Yusif şah** [Mətn] /M.F.Axundzadə.- Bakı: Bakı işçisi, 1926.- 24 s.- Latın əlifbası ilə.

**7. Hacı Qara. Sərgüzəşti-mərdi-xəsis** [Mətn]: 5 pərdəli komediya /M.F.Axundzadə.- Bakı: Bakı işçisi, 1926.- 42 s.- Latın əlifbası ilə.

**8. Molla İbrahim-Xəlil kimyagər** [Mətn]: komediya. 4 məclisdə /M.F.Axundzadə.- Bakı: Bakı işçisi, 1926.- 19 s.- Latın əlifbası ilə.

**9. Mürafəə vəkilləri** [Mətn]: 3 pərdəli komediya hekayəsi şəhri Təbrizdə /M.F.Axundzadə.- Bakı: Bakı işçisi, 1926.- 43 s.- Latın əlifbası ilə.

**10. Nabatat həkimi Müsyo Jordan ilə cadukun dərviş Məstəli şahın hekayəti** [Mətn]: 4 pərdəli komediya /M.F.Axundzadə.- Bakı: Bakı işçisi, 1926.- 28 s.- Latın əlifbası ilə.

**11. Sərgüzəşti vəzire-xane-Sərab** [Mətn]: 4 pərdəli komediya /M.F.Axundzadə.- Bakı: Bakı işçisi, 1926.- 28 s.- Latın əlifbası ilə.

**1930**

**12. Hacı Qara. Sərgüzəşti-mərdi-xəsis** [Mətn]: 5 pərdəli komediya /M.F.Axundov.- İkinci təbi.- Bakı: Azərnəşr, 1930. - 70 s.

**1935**

**13. Hacı Qara** [Mətn]: 5 pərdəli komediya /M.F.Axundov; red. S.Rəhman.- Bakı: Azərnəşr, 1935.- 60 s.

**14. Müsyo Jordan və Məstəli şah. Nəbatat həkimi Müsyö Jordan ilə cadukun dərviş Məstəli-Şahın hekayəsi** [Mətn]: 4

pərdəli komediya /M.F.Axundov.- Bakı: Azərnəşr, 1935.- 39 s.- Latın əlifbası ilə.

**1937**

**15. A.S.Puşkinin ölümünə Şərq poeması** [Mətn] /M.F.Axundov.- Bakı: Azərnəşr, 1937.- 31 s.

**16. Aldanmış kəvakib: Hekayəti Yusif şah** [Mətn] /M.F.Axundov.- Bakı: Azərnəşr, 1937.- 55 s.

**17. Lənkəran xanı vəzirinin sərgüzəşti** (Sərgüzəşti-vəziri-xani-Lənkəran) [Mətn]: 4 pərdəli komediya /M.F.Axundov.- Bakı: Azərnəşr, 1937.- 42 s.

**1938**

**18. Aldanmış kəvakib: Hekayəti Yusif şah** [Mətn] /M.F.Axundov; red. və ön söz müəl. F.Qasımzadə; SSRİ EA Azərbaycan filialı Nizami ad. Ədəbiyyat və Dil İnstitutu.- Bakı: Azərnəşr, 1938.- 57 s.

**19. Əsərləri** [Mətn]: 3 cilddə: [Şeirlər və komediyalar] /M.F.Axundov; tərt. H.Araslı; red. M.Arif; SSRİ EA Azər-baycan filialı, Nizami adına Ədəbiyyat və Dil İnstitutu.- Bakı: Azərnəşr, 1938.- C.I.- 477 s.

**Kitabın içindəkilər:** F.Qasımzadə. Mirzə Fətəli Axundovun poeziya və dramaturgiyası. Mirzə Fətəli Axundov haqqında bioqrafik məlumat. Şeirlər: Təcnis. Təcnisi-digər; Molla Əli; Müxəmməs; Hekayəti-Seyid Ələm Səlyani; Cəfərqulu xana mənzum məktublar (üç məktub); Zakirə məktub; Çeşmə kitabəsi; Səidə xitab; Mədhiyyə; Fuad paşanın mədhinə; Puşkinin ölümü haqqında poema; Onların təqlidi elmi bərbad etdi; Yenə ünsü cin və adamlar arasında bu nə qarışıqlıqdır; Mən ad və şöhrət axtararaq; Yeni əlifba haqqında mənzumə; Həcvi-Əbdürrəsul xan; Vanda; Mədhnamə; Qəsidə. Komeiyalar: Hekayəti-Molla İbrahim Xəlil kimyagər; Hekayəti-Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur; Sərgüzəşti-vəziri-xani-Lənkəran; Hekayəti-xırs-quldurbasan; Sərgüzəşti -mərdi-xəsis (Hacı Qara); Mürafiə vəkillərinin hekayəti.

